


# Bilgəhdə Beynəlxalq Ahıllar Günü münasibətilə tədbir keçirilib



***Dünən Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, Sabunçu rayon icra hakimiyyəti, YAP Sabunçu rayon təşkilatı və Sabunçu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Beynəlxalq Ahıllar Günü münasibətilə Bilgəh qəsəbəsindəki "Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət mərkəzi"ndə bayram tədbiri keçirilib.***

Tədbirdə çıxış edən müəssisənin direktoru Qətibə Əsədova rəhbərlik etdiyi qurumun fəaliyyəti və dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov çıxışında bu tarixin beynəlxalq səviyyədə qeyd edilməsinin ahıllara diqqət və qayğının artırılması məqsədi daşıdığını bildirib. R.Abbasov, həmçinin, son illərdə pensiya yaşına çatmış şəxslər üçün Prezident İlham Əliyevin tapşırığı ilə sosial xidmət müəssisəsində əsaslı təmir və yenidənqurma işlərindən, ahıl insanlar üçün yaradılan yaşayış şəraitinin yaxşılaşdırılmasından danışıb.

Görüşdə Sabunçu rayon icra hakimiyyəti başçısının müavini Rəna Fərəcova öz çıxışında qeyd etdi ki, Azərbaycanda yaşlı insanlara istər ailədə, istərsə də dövlətimiz tərəfindən diqqət və qayğı olub və bu gün də mövcuddur. R.Fərəcova, onu da vurğulayıb ki, BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edib və həmin qətnamənin prinsiplərinə uyğun olaraq, hər il oktyabrın 1-i bütün dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur.

Millət vəkili Dilarə Cəbrayılova çıxış edərək bildirib ki, Azərbaycanda ahıl insanlara dövlət qayğısı ildən-ilə artır: "Beynəlxalq Ahıllar günü ölkəmizdə 1993-cü ildən qeyd olunur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb, 22 iyun 2001-ci il tarixdə "Ahıllara sosial xidmət haqqında" Qanun qəbul olunub. Həmin Qanuna əsasən, ölkədə 70 yaşına çatan Azərbaycan vətəndaşları, habelə, ölkəmizdə daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur".

YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxışında böyüklərə hörmət və qayğının hər bir insanın mənəvi borcu olduğunu bildirib: "Böyüklərə hörmət Azərbaycan xalqının adət-ənənəsidir. Cəmiyyətdə əxlaqi dəyərlərin təbliğində, məhz böyüklərə hörmət və qayğı hissinin formalaşdırılması vacib məsələlərdəndir. Bu, cəmiyyəti yaşadan ən əsas prinsiplərdən biridir".

M.Abasquliyeva, eyni zamanda, onu da söyləyib ki, YAP həmişə müxtəlif layihələr həyata keçirərək, qayğıya ehtiyacı olan insanlarla görüşlər təşkil edir: "Belə görüşlər bundan sonra da davam edəcək. Çünki Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də, ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın rifahı üçün istifadə edilsin".

Müəssisənin sakinləri də çıxış edərək ölkə rəhbərliyinin, xüsusilə, dövlətimizin başçısı İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın onlara göstərdikləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ahıllar günü ilə bağlı qocalar evinin sakinləri arasında stolüstü oyunlar keçirilib. Sonda qaliblərə fəxri diplomlar verilib. Eyni zamanda, müəssisənin direktoru Qətibə Əsədovaya çalışdığı dövrdə qazandığı nailiyyətlərə görə təşəkkürnamə təqdim edilib.

Görüş ahılların təşkil etdiyi konsert proqramı ilə davam edib.

***Rəfiqə KAMALQIZI***